# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsinə doğru irəliləyir

## Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Bütün növ istehlakçı qruplar tərəfindən 80 milyon 815,7 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 5 milyon 029,8 min manata qarşı 4 milyon 642,5 min manat vəsait toplanaraq illik yığım planı 92,3 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 90,1 %, dövlət müəssisələri üzrə 91,5 %, ticarət xidməti üzrə 94,8 %, özəl sənaye üzrə 87,3 %, əhali qrupu üzrə isə 89 % olmuşdur.

10/6 kV-luq hava xəttinin 12,1 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Bum, Vəndam, Zarağan, Böyük Pirəli, Qaradeyin, Hacıalılı, Dizaxlı, Zalam, Nic, Mıxlıqovaq, Quşçuluq, şəhər 5-ci, 3-cü və 1-ci hava xətlərində 320 ədəd fiziki köhnəlmiş ağac dayaq KD-10.5, KD-9.5 tipli dəmir-beton dayaqlarla əvəzlənmiş, 50640 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. Bunud kəndində 250 kVA, Nohurqışlaq kəndində 160 kVA, Daşca kəndində 400 kVA, Nic qəsəbəsində 250 kVA, Qəbələ şəhərinin "Almalıq" yaşayış massivində 250 kVA, Vahid Qəhrəmanov küçəsində 400 kVA, Mirzə Fətəli Axundov küçəsində 400 və 250 kVA, Mikayıl Müşfiq küçəsində 250 kVA, Məcid Mərdanov küçəsində 250 kVA, Mir Cəlal Paşayev küçəsində 250 kVA, 20 Yanvar küçəsində 400 kVA və İsmayıl bəy küçəsində 400 kVA gücündə 13 ədəd transformator yarımstansiyaları quraşdırılmış, 12,8 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər ÖDİN-lə (özünü daşıyan izolyasiyalı naqil) əvəz edilmişdir. 62 ədəd transformator yarımstansiyasının mühafizə zonası alaq otları və kollardan təmizlənmiş, 25 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədələnmiş kabellər yenisi ilə əvəz edilmişdir. 36 km məsafədə 0,4 kV elektrik verilişi hava xətlərinin mühafizə zonasında ağac kütlədən təmizləmə işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 26 milyon 179,7 min kub/metr təbii qaz istehlak edilmiş, 2 milyon 618 min manata qarşı 2 milyon 766,1 min manat vəsait toplanmış, ümumi yığım məbləği 105,7 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 105 %, büdcə təşkilatları üzrə 84,4 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 113 % təşkil etmişdir.

Doqquz ay ərzində 3.424 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 15.559-a çatdırılmışdır. Bum, Nic qəsəbələrində, Qəmərvan, Mirzəbəyli və Həmzəli kəndlərində müxtəlif diametrli qaz xətləri çəkilmiş, yeni sayğaclar quraşdırılmış və 341 ədəd istismar müddəti bitmiş sayğac dəyişdirilmişdir. Rayon ərazisində 7 ədəd ŞQTM tipli yeni təzyiq tənzimləyicisi quraşdırılmışdır.

Qəbələ Su-kanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi küçəsində təmir-bərpa işləri aparılmış, axıntıların qarşısı alınmışdır. İsmət Qayıbov, Vahid Qəhrəmanov, İmadəddin Nəsimi, Nizami Gəncəvi və Muxtar Abduyev küçələrində yerləşən yaşayış sahələrində müxtəlif diametrli plastik və dəmir borular dəyişdirilərək su xətləri təmir olunmuşdur. Zarağan qəsəbəsində məcburi köçkünlər üçün inşa edilmiş şəhərcikdə 1 ədəd su nasosu dəyişdirilmiş, Muxtar Aduyev küçəsindəki yaşayış sahəsində, Heydər Əliyev prospektində, Mirzə Fətəli Axundov və Məcid Mərdanov küçələrində kanalizasiya xətləri təmir edilmişdir. Şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində Dünya Bankının maliyyə dəstəyi ilə ayrı-ayrı küçələr üzrə 61.127 pm su, 123.073 pm kanalizasiya xətləri çəkilmişdir. Su xətləri üzrə 2.370 ədəd, kanalizasiya xətləri üzrə 2.495 ədəd ev birləşmələri verilmişdir. 1.900 ədəd smart tipli su sayğacları quraşdırılmışdır. İlin əvvəlindən 244,8 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 79,9 %-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 76 %, büdcə üzrə 81,2 %, kommersiya və digər təşkilatlar üzrə 86,8 % təşkil etmişdir.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2014-cü il tarixli 961 nömrəli Sərəncamına əsasən Bəyli, Mirzəbəyli, Cığatelli, Seyidqışlaq, Məmmədağalı, Bunud və Həmzəli kəndlərinin hər birində 1 ədəd olmaqla (cəmi 7 ədəd) subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Bundan əlavə ölkə başçısının 15 dekabr 2015-ci il tarixli sərəncamına əsasən 2016-cı ildə rayonda 3 ədəd (Qəbələ şəhəri, Vəndam qəsəbəsi, Zirik kəndi), 01 iyul 2016-cı il tarixli Sərəncamına əsasən isə daha 3 ədəd (Mıxlıqovaq, Zarağan, Məlikli) cəmi 6 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuş, onlardan üçündə qazma işlərinə başlanılmışdır.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı ilin doqquz ayı ərzində şəhər təsərrüfatına 298,7 min manat, ictimai yaşayış binalarına 38,9 min manat, idarə və müəssisələrə 57,3 min manat, kommersiya obyektlərinə 8,7 min manat və fərdi yaşayış evlərinə 5,2 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

İlin əvvəlindən Qəbələ Rayon 10 №-li Yol İstismarı MMC tərəfindən 1 milyon 283,8 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı 880 min manat tarif gəliri proqnozuna qarşı 887,1 min manat gəlir əldə etmiş, proqnoz tapşırığı 101,8 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin montaj tutumu 11980 nömrəyə çatdırılmışdır. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. Doqquz ay ərzində şəhər və kənd əhalisinə 782 ədəd telefon çəkilmiş, 1431 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 4347 nəfər təşkil edir. İlin əvvəlindən şəhər telefon şəbəkəsində 28 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmiş, 70 ədəd dibləri çürümüş rabitə dirəyi təmir olunaraq, beton calaq edilmişdir. Seyid Əzim Şirvani, Elçin Kərimov, 28 May, İmadəddin Nəsimi, İbrahim bəy Musabəyov, Mirzə Ələkbər Sabir və Sadiq Eyyubov küçələrində ümumulikdə 2300 metr məsafədə kabel hava xətlərinin təmiri və tarıma çəkilmə işləri görülmüşdür. Vəndam qəsəbə EATS-dən Duyma istirahət zonasına 48 nömrəlik, Kürd kənd EATS-dən Savalan kəndinə 48 nömrəlik deslam avadanlığı montaj edilmişdir. Nohurqışlaq kənd EATS-nin istismara yararsız akkumulyator batareyası dəyişdirilmiş, Tüntül kənd EATS-nin xətt şəbəkəsində 10 nömrənin çəkilməsi üçün 20 ədəd dəmir dirək basdırılmış, 1000 metr məsafədə kabellər çəkilmiş, 2 ədəd abunəçi qutusu dəyişdirilmişdir. Zarağan kənd EATS-i müvəqqəti yerləşdirilmiş binadan yeni tikilmiş EATS-in binasına köçürülmüşdür.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 181,9 min manata qarşı 194,9 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığa 107,1 % əməl etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 39,7 min manat artım olmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində hazırda 4.395 həRəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 306,5 min manat təşkil edir. Doqquz ay ərzində 129 nəfər 18 yaşadək əlil uşağa, 225 nəfər I, II və III qrup əlillərə, 40 ailənin 91 uşağına ailə başçısını itirməyə, 44 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 847 ailənin 919 uşağına anadan olmasına görə, 19 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənilmişdir. 318 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, həmin ailələrdən 1 yaşadək uşağı olan 24 ailəyə müavinət təyin edilmişdir. Hazırda şöbədə 988 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

2016-cı ilin doqquz ayı ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 6 milyon 164,3 min manata qarşı 4 milyon 915,6 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 79,7 % əməl olunmuşdur. Həmin dövrdə təşkilatda 886 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 30-u hüquqi, 752-si fiziki şəxs, 104-ü isə pay torpaq mülkiyyətçisi olmuşdur. 01 oktyabr 2016-cı il vəziyyətinə şöbədə 11.593 pensiya işi üzrə 11.882 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 17 milyon 100,3 min manat pensiya, 385,5 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 1 milyon 922,7 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 165 manat 85 qəpik təşkil etmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təmin olunması üçün suvarma kanalları 389 min kub/metr lildən, 764 min kub/metr çay məcrası daşqın və selə qarşı mübarizə məqsədilə daş və qumdan təmizlənmiş, 231 kubmetr qabion bəndi vurulmuş, 2211 kubmetr daş-beton bənd cari və əsaslı təmir edilmişdir.

2016-cı ilin ötən dqquz ayı ərzində Qəbələ şəhərində Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının inzibati binasında, "Tufandağ otel" kompleksində, "Qəbələ park bulvar" obyektində, Dəmiraparan çayı üzərindəki 10 aşırımlı 324 p/metrlik dəmir-beton körpüdə, Qəmərvan-Bum yolundakı çayın üzərində 1 aşırımlı 36 p/metrlik dəmir-beton körpüdə, Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunda, "Asan Xidmət"in inzibati binasında və şəhərdəki 100 yerlik uşaq bağçasının binasında tikinti-quraşdırma işləri başa çatdırılmış və həmin obyektlər istifadəyə verilmişdir.

Bununla yanaşı şəhərin Muxtar Abduyev küçəsindəki 11 ədəd beşmərtəbəli yaşayış binalarında cari təmir işləri, Heydər Əliyev prospektindəki beşmərtəbəli yaşayış binalarının həyətində və şəhərdəki 5 nömrəli tam orta məktəbin arxa hissəsindəki küçədə abadlıq işləri aparılmışdır. 28 may və Vahid Qəhrəmanov küçələrində isə abadlıq və yenidənqurma işləri davam etdirilir.

Eləcə də Qəbələ Futbol Akademiyası və Stadionlar Kompleksində, "Aquapark" İstirahət Kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binasında, "Qrand siti" otelinin binasında, Savalan kəndindəki "Raftinq Mərkəzi"-ndə, gömrük akademiyasının, rayon məhkəməsinin inzibati binalarında, Nohur gölü ərazisindəki Sanatoriya Kompleksində, atçılıq mərkəzində, peşə məktəbinin yeni binasında, kənd təsərrüfatı idarəsinin inzibati binasında, Qəbələ şəhərindəki "Qolf" kompeksində, Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması layihəsi çərçivəsində içməli su və kanalizasiya şəbəkələrinin tikintisi obyektlərində tikinti quraşdırma işləri davam etdirilir.

**Hörmətli tədbir iştirakçıları!**

Cənab İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə məktəbəqədər tərbiyə müəssisələri yerli icra hakimiyyəti orqanlarının birbaşa rəhbərliyi altında fəaliyyət göstərir. Rayonumuzda olan 23 məktəbəqədər tərbiyə müəssisəsində mövcud maddi-texniki vəziyyətin daha da yaxşılaşdırılması məqsədi ilə 2016-cı ilin ötən dövrü ərzində yerli büdcədən ayrılmış vəsait hesabına kifayət qədər yumşaq, bərk inventarlar və elektrik avadanlıqları alınaraq bütün uşaq bağçalarına verilmişdir. Hazırda Soltannuxa kənd uşaq bağçasında əsaslı təmir işləri aparılır. Həmçinin rayonun bütün ümumitəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin müstəqil həyata hazırlanması sahəsində məqsədyönlü işlər davam etmişdir.

Məktəblərimiz 2015/2016-cı tədris ilini yaxşı nəticələrlə başa vurmuş və ümumilikdə təlimin göstəriciləri yüksək olmuşdur. Biliyi qiymətləndirilən 15762 nəfər şagirddən 3995 nəfəri "əla", 6042 nəfəri isə "4" və "5" qiymətlərlə oxumuşdur.

(Ardı 6-cı səhifədə).